***Vüsalə Yaşar qızı Ağahüseynova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0000-0002-3216-6238*
*E-mail: vusala.aghahuseynova.dok@arti.edu.az*

# MƏKTƏBLƏRİN İDARƏ OLUNMASINDA KOUÇLUQ STRATEGİYALARININ ƏHƏMİYYƏTİ

***Вусала Яшар гызы Агагусейнова***
*докторант по программе доктора философии Института Образования Азербайджанской Республики*

# ВАЖНОСТЬ КОУЧИНГОВЫХ СТРАТЕГИЙ В УПРАВЛЕНИИ ШКОЛАМИ

***Vusala Yashar Aghahuseynova***
*doctoral student in the Doctor of Philosophy program at the Institute of Education of the Republic of Azerbaijan*

# THE IMPORTANCE OF COACHING STRATEGIES IN SCHOOL MANAGEMENT

**Xülasə.** Məqalədə “Məktəblərin idarə olunmasında kouçluq strategiyalarının əhəmiyyəti” mövzusu araşdırılıb. Təhsil sahəsində kouçluq metodlarının tətbiqinin məktəb idarəçiliyində və tədris prosesindəki müsbət təsirlərini vurğulanıb. Həmçinin, məqalədə kouçluq strategiyalarının məktəb rəhbərləri və müəllimlər üçün liderlik və idarəetmə bacarıqlarını inkişaf etdirməklə yanaşı şagirdlərin fərdi inkişafına, təhsilin keyfiyyətinə necə təsir etdiyinə dair əsas fikirlər təqdim olunub.

Kouçluq metodları məktəb rəhbərlərinin daha səmərəli qərarlar qəbul etməsinə, müəllimlərin peşəkar inkişafını dəstəkləməyə və şagirdlərə motivasiya verməyə kömək edir. Məqalədə kouçluğun tətbiqi ilə məktəblərdə əməkdaşlıq mühitinin yaradılması, şagird potensialının aşkar edilməsi və müasir tədris metodlarının tətbiqi kimi məsələlərə də diqqət çəkilib. Məqalədə həmçinin kouçluq strategiyalarının məktəb idarəçiliyində qarşılaşılacaq çətinliklər və bu çətinliklərin həlli yollarını təqdim edilib. Kouçluq metodlarının təhsil sistemində tətbiqi məktəblərin idarə olunmasında daha müasir və effektli yanaşmalara yol açır, təhsilin keyfiyyətinin yüksəlməsinə və məktəb mühitində müsbət dəyişikliklərin baş verməsinə şərait yaradır.

***Açar sözlər:*** *kouçluq, məktəb idarəçiliyi, liderlik, təhsil keyfiyyəti, idarəetmə strategiyaları.*

**Аннотация.** В данной статье рассматривается тема «Значение стратегий коучинга в управлении школами» и широко обсуждается роль применения методов коучинга в образовательных учреждениях, в управлении школой, в профессиональном развитии учителей и в образовательном процессе учащихся. Показано, как применение коучингового подхода в сфере образования влияет не только на индивидуальное развитие, но и на общее развитие образовательной среды.

Прежде всего, объясняется, как стратегии коучинга укрепляют лидерские и управленческие навыки в управлении школой. Применяя коучинговые подходы, руководители школ могут

реализовать эффективные процессы принятия решений в управлении школами с помощью более прозрачных, открытых и творческих методов управления. Этот метод также помогает руководителям школ быстрее и правильнее решать проблемы в образовательной среде.

В статье показано, как коучинговые подходы влияют на профессиональное развитие учителей и как учителя могут преподавать более творчески, позитивно и мотивированно. Коучинг позволяет учителям лучше понимать и развивать свои собственные навыки.

В статье также широко обсуждаются трудности, возникающие при применении коучинговых подходов, и пути их решения. Среди этих трудностей отмечаются такие проблемы, как сопротивление новизне методов коучинга в системе образования, нехватка времени и ресурсов. Однако предлагаемые решения для преодоления этих трудностей, подчеркивается в статье, заключаются в том, чтобы руководители школ более систематически применяли методы коучинга и поддерживали учителей и учащихся в принятии этих методов.

***Ключевые слова:*** *коучинг, управление школой, лидерство, качество образования, стратегии управления.*

**Abstract.** The article examines the topic “The importance of coaching strategies in school management”. The positive effects of the application of coaching methods in the field of education in school administration and the teaching process were emphasized. Also, the article presents key ideas on how coaching strategies affect the personal development of students and the quality of education, in addition to developing leadership and management skills for school leaders and teachers.

Coaching methods help school leaders make more effective decisions, support teachers' professional development, and motivate students. The article draws attention to issues such as creating an environment of cooperation in schools with the application of coaching, revealing student potential and applying modern teaching methods. The article also presents the difficulties of coaching strategies in school management and the ways to solve these difficulties. The application of coaching methods in the educational system paves the way for more modern and effective approaches to school management, improves the quality of education and creates conditions for positive changes in the school environment.

***Keywords:*** *coaching, school management, leadership, educational quality, management strategies.*

XXI əsr təhsil sahəsində dərin dəyişikliklər və yeniliklər dövrü kimi xarakterizə edilə bilər. Bu dəyişikliklər həm qlobal rəqabət mühitinin artması, həm də texnologiyanın sürətli inkişafı ilə bağlıdır. Məktəblər yalnız akademik biliklərin ötürülməsi ilə məhdudlaşmır; onlar, eyni zamanda, şagirdlərin düşüncə qabiliyyətlərini inkişaf etdirən, onları daha güclü və səriştəli bir cəmiyyətin üzvləri olmağa hazırlayan yerlərdir. Bu vəzifənin yerinə yetirilməsində məktəb idarəçilərinin rolu danılmazdır. Məktəbin idarəetmə strukturu yalnız tədris keyfiyyətinə deyil, həm də müəllim və şagirdlərin motivasiyasına, ümumi təhsil mühitinə təsir göstərir.

Son illərdə müasir idarəetmə konsepsiyalarında kouçluq strategiyaları getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayıb. Ənənəvi liderlik yanaşmalarının məhdudiyyətləri yenilikçi və şəxsə yönəlmiş kouçluq yanaşmasının təhsil sisteminə daxil olmasına şərait yaradıb. Kouçluq anlayışı ilk növbədə iş dünyasında istifadə edilsə də artıq təhsil sahəsində də öz yerini tapmışdır. Kouçluq müəllimlərin və digər təhsil işçilərinin potensialını üzə çıxarmağa, onları motivasiya etməyə, şəxsi və peşəkar hədəflərinə çatmağa təşviq edən bir yanaşmadır. Kouçluq həm məktəb rəhbərlərinin, həm də müəllimlərin məktəb daxilində daha güclü əməkdaşlıq əlaqələri qurmasına, birlikdə işləyərək hədəflərinə çatmasına imkan verir.

Məktəbdə kouçluq strategiyalarının istifadəsi təhsil mühitinin daha şəffaf və məhsuldar olmasını təmin edir. Kouçluq strategiyaları vasitəsilə məktəb rəhbərləri yalnız əmrlərlə idarə etmə əvəzinə müəllim və şagirdlərin ehtiyaclarını başa düşməyə, onların inkişafına dəstək göstərməyə çalışır. Beləliklə, kouçluq yanaşması məktəblərdə idarəetmə prosesini daha humanist, qarşılıqlı anlaşmaya dayanan bir sistemə çevirir. Bu, həm də müəllimlərin iş mühitindən məmnunluğunu artırır, onları davamlı inkişaf yolunda irəliləməyə həvəsləndirir.

Kouçluq strategiyalarının məktəb idarəçiliyində tətbiqi təhsil müəssisələrinin daha effektiv idarə olunmasına, müəllim və şagirdlərin potensialını tam şəkildə üzə çıxarmağa yönəlmiş müasir bir yanaşmadır. Bu strategiyaların əsas məqsədi məktəb icmasında pozitiv və dəstəkləyici bir mədəniyyət formalaşdırmaq, problemləri kollektiv şəkildə həll etmək və hər bir fərdin inkişafına dəstək olmaqdır.

Ənənəvi liderlik modellərində rəhbərlər daha çox əmrlərlə və nəzarətlə idarəetmə yanaşmasını seçirdilər. Lakin kouçluq liderliyində rəhbərlər müəllim və işçiləri motivasiya etməyə, onların fərdi hədəflərinə çatmalarına dəstək olmağa yönəlirlər. Belə yanaşma:

- İdarəçiləri strateji qərarvermə prosesində daha çevik edir.
- Müəllim və heyətin özünəinamını artırır.
- Rəhbərlərin problemləri səmərəli həll etməsinə imkan verir (1)

Məsələn, kouçluq vasitəsilə idarəçi, müəllimlərin peşəkar inkişafı üçün fərdi planlar hazırlaya və onları bu planların icrasında motivasiya edə bilər.

Kouçluq müəllimlərin iş fəaliyyətini daha məhsuldar etmək üçün istifadə olunan vacib bir vasitədir. Bu yanaşma müəllimlərə:

- Öz güclü və zəif tərəflərini müəyyən etməyə kömək edir.
- Yeni tədris metodlarının öyrənilməsi və tətbiqində dəstək verir.
- Stress və iş yükləməsini azaldaraq iş mühitini daha sağlam edir (1)

Məsələn, kouçluq görüşləri vasitəsilə bir müəllim öz dərs metodikasında hansı dəyişiklikləri etməli olduğunu daha asan müəyyənləşdirə bilər.

Kouçluq strategiyaları məktəbdə komanda işini inkişaf etdirmək üçün unikal imkanlar təqdim edir. Bu, məktəbin ümumi idarəetməsini daha harmonik edir və əməkdaşların bir-birinə dəstək olmasını təmin edir. Komanda əməkdaşlığı:

- Müəllimlər arasında təcrübə mübadiləsini artırır.
- Müəllimlər və rəhbərlər arasında daha açıq kommunikasiya yaradır.
- Məktəbdə problemlərin kollektiv şəkildə həllini asanlaşdırır.

Bir çox məktəbdə kouçluq təlimləri vasitəsilə müəllimlər, iş birliyinə əsaslanan dərs planlaması və sinifdaxili fəaliyyəti daha effektiv həyata keçirirlər.

Kouçluq şagirdlərin fərdi inkişafını dəstəkləmək üçün də geniş imkanlar yaradır. Şagird mərkəzli kouçluq yanaşması ilə:

- Onların maraqları və bacarıqları aşkarlanır.
- Özünəinam və motivasiya səviyyəsi artır.
- Şagirdlərin öyrənmə prosesində daha fəal iştirak etməsi təmin edilir.

Məsələn, kouçluq prosesində müəllimlər hər bir şagirdə fərdi yanaşma tətbiq edərək onların xüsusi maraqlarına və istedadlarına uyğun tədris metodları seçirlər.

Effektiv tətbiq üçün təhsildə kouçluq yanaşmalarına investisiya qoyulmalı və bu sahədə təlimlər daha geniş şəkildə həyata keçirilməlidir (2).

Məktəblərin idarə olunmasında kouçluq strategiyalarının tətbiqi liderlik anlayışını ənənəvi idarəetmə modelindən daha innovativ və iştirakçı bir forma çevirir. Liderliyin gücləndirilməsi kouçluq yanaşmasının əsas hədəflərindən biridir və məktəb rəhbərlərinin təkcə inzibati qərarlar qəbul edən şəxs olmaqdan daha çox əməkdaşlıq edən, dəstəkləyən və istiqamət verən bir rola keçməsini təmin edir. Kouçluq vasitəsilə gücləndirilmiş liderlik, məktəblərin yalnız idarəetmə məsələlərini həll etməsinə deyil, həm də yüksək keyfiyyətli təhsil mühitinin formalaşdırılmasına imkan yaradır (3)

Müəllimlərin peşəkar inkişafı təhsil sisteminin keyfiyyətinin artırılmasında və məktəblərin davamlı müvəffəqiyyət əldə etməsində mühüm rol oynayır. Kouçluq strategiyalarının bu sahəyə tətbiqi müəllimlərin bilik və bacarıqlarının genişləndirilməsi, motivasiyalarının artırılması və onların professional hədəflərinə çatması üçün effektiv vasitədir. Müəllimlərin peşəkar inkişafı yalnız onların bilik və bacarıqlarının artırılması ilə məhdudlaşmır.

Motivasiya və əməkdaşlıq mühitinin qurulması həm müəllimlərin, həm şagirdlərin, həm də idarəetmə heyətinin daha məhsuldar və harmonik şəkildə fəaliyyət göstərməsi üçün əsas şərtlərdəndir. Kouçluq strategiyaları bu mühiti yaratmaq və davamlı saxlamaq üçün təsirli bir vasitədir. Şagirdlərin hər birinin müxtəlif maraqları, qabiliyyətləri və öyrənmə tərzləri vardır, buna görə də onların potensialını tam şəkildə aşkar etmək məktəb rəhbərliyinin və müəllimlərin diqqət mərkəzində olmalıdır (4).

Kouçluq strategiyalarının məktəb idarəçiliyində tətbiqi təhsil sahəsində ciddi və təsirli dəyişikliklərə səbəb ola biləcək bir yanaşmadır. Bununla belə, bu yanaşmanın tətbiqində bir sıra çətinliklərlə qarşılaşmaq mümkündür. Bu çətinliklər həm metodoloji, həm də təşkilati aspektlərdə ortaya çıxa bilər. Lakin bu çətinliklərə qarşı həll yolları da mövcuddur ki, onlar kouçluq strategiyalarının məktəb idarəçiliyində daha effektiv şəkildə həyata keçirilməsinə imkan yaradır (5).

Birinci növbədə, kouçluq strategiyalarının tətbiqində ən böyük çətinliklərdən biri məktəb idarəetmə strukturlarının və resurslarının bu yanaşmaya uyğun olmamasıdır. Bəzi məktəblərdə kouçluq metodlarının tətbiqinə qarşı mənfi münasibət və ya müqavimət müşahidə edilə bilər, xüsusən də ənənəvi tədris və idarəetmə yanaşmalarına alışmış müdirlər və müəllimlər tərəfindən.

Bu çətinliyi aşmaq üçün məktəb rəhbərləri və müəllimlərə kouçluğun faydaları barədə ətraflı məlumat verilməli, müvafiq təlimlər təşkil edilməlidir. Kouçluğun effektivliyini göstərən nümunələr, uğurlu tətbiq təcrübələri və araşdırmalar təqdim edilməlidir. Bundan əlavə, məktəbin rəhbərliyi kouçluq prosesinə güclü dəstək göstərməli və kouçluq metodlarının tətbiqi üçün lazım olan resursları təmin etməlidir. İdarəetmə komandasının kouçluq metodlarına inamı artırılarsa, bu, daha geniş tətbiq sahəsinə yol açacaqdır.

Məktəb rəhbərləri və müəllimlərdə xüsusi kouçluq bacarıqları olmalıdır. Lakin çox vaxt bu sahədə təcrübə və bilik çatışmazlığı müşahidə edilir. Müəllimlər və idarəçilər kouçluq

metodlarını tətbiq etməkdə çətinlik çəkə bilər, çünki bu metodlar ənənəvi tədris üsullarından fərqli yanaşmalar tələb edir.

Bu çətinliyin aradan qaldırılması üçün kouçluq təlimləri və seminarları təşkil edilməlidir. Müəllimlərə və idarəçilərə kouçluq bacarıqlarını inkişaf etdirmək üçün xüsusi təlimlər verilməli, həmçinin bu sahədə ixtisaslaşmış peşəkarlardan məsləhət alınması tövsiyə edilməlidir. Kouçluq təlimləri yalnız nəzəri məlumat verməklə kifayətlənməməli, praktiki tətbiq bacarıqlarının da inkişaf etdirilməsinə yönəlməlidir.

Digər bir çətinlik müəllimlərin və məktəb idarəçilərinin kouçluq yanaşmalarına qarşı olan motivasiya çatışmazlığıdır. Əgər müəllimlər və idarəçilər kouçluq metodlarının tətbiqinin əhəmiyyətinə və faydalarına inanmasalar bu yanaşmanın təsirli tətbiqi çətinləşir.

Bu çətinliyin həlli üçün kouçluq yanaşmasının faydalarını və tətbiqinin praktiki nəticələrini göstərəcək motivasiyaedici tədbirlər təşkil edilməlidir. Misal üçün, kouçluq metodları tətbiq edilən məktəblərdə müsbət dəyişiklikləri göstərən real həyat nümunələri və uğurlu təcrübələr təqdim edilməlidir. Bundan əlavə, kouçluğun tətbiqi ilə bağlı əldə edilən müsbət nəticələrin müvafiq şəkildə qeyd edilməsi və müəllimlərə təşəkkür edilməsi motivasiyanı artıracaqdır.

Məktəblərdə fərqli mədəniyyətlərə və sosial qruplara aid olan şagirdlərin olması kouçluq yanaşmasının tətbiqində əlavə çətinliklər yarada bilər. Müxtəlif şagird qruplarının ehtiyacları və öyrənmə tərzləri fərqli ola bilər, bu da kouçluq strategiyalarının daha uyğun şəkildə tətbiq edilməsini tələb edir.

Bu çətinliyi aşmaq üçün kouçluq yanaşmaları şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq tətbiq edilməlidir. Müəllimlər və idarəçilər şagirdlərin mədəniyyətini və sosial vəziyyətini anlayaraq fərdi yanaşmalar tətbiq etməlidirlər. Bu məqsədlə fərdi inkişaf planları hazırlanmalı, müxtəlif ehtiyaclara uyğun strateji tədbirlər müəyyən edilməlidir. Kouçluq metodlarının şagirdlərin ehtiyaclarına uyğunlaşdırılması, onların inkişafına müsbət təsir edəcəkdir (6).

Zaman və resursların mövcudluğu da mühüm çətinliklərdən biridir. Müəllimlər və idarəçilər zaman baxımından çox məşğul olduqları üçün kouçluq fəaliyyətlərini həyata keçirmək üçün kifayət qədər vaxt ayıra bilməyəcəklərini hiss edə bilərlər. Bundan əlavə, kouçluq metodları üçün lazım olan materiallar, təlimatlar və texniki dəstək bəzən mövcud olmaya bilər.

Zaman və resurs çatışmazlığını aradan qaldırmaq üçün məktəb rəhbərliyi, kouçluq fəaliyyətlərini icra etmək üçün təqvim planları hazırlamalıdır. Bu planlarda kouçluq fəaliyyətləri üçün müvafiq vaxt ayırılmalı və resursların optimal istifadəsi təmin edilməlidir. Eləcə də, məktəb rəhbərliyi kouçluq metodlarını tətbiq etmək üçün lazım olan texniki dəstəyi və materialları təmin etməlidir. Mümkünsə məktəb büdcəsindən bu məqsədlər üçün xüsusi vəsait ayrılmalıdır (7).

Məktəb rəhbərliyi, müəllimlər və digər təhsil işçiləri, kouçluq metodlarının faydalarını anladıqca və onları düzgün şəkildə tətbiq etdikcə, təhsil mühitindəki ümumi inkişaf sürətlənəcək və şagirdlərin, müəllimlərin və məktəb idarəçilərinin potensialı tam şəkildə ortaya çıxacaqdır.

**Nəticə / Conclusion**

Kouçluq məktəb rəhbərləri, müəllimlər və şagirdlər arasında qarşılıqlı hörmətə əsaslanan əlaqələr qurulmasına kömək edir, həmçinin müsbət dəyişikliklərə və inkişaflara şərait yaradır. Bu

strategiyalar xüsusən də liderliyin gücləndirilməsi, müəllimlərin peşəkar inkişafı, motivasiya və əməkdaşlıq mühitinin qurulması, şagird potensialının aşkar edilməsi və müasir tədris metodlarının tətbiqi sahələrində böyük əhəmiyyət kəsb edir.

Lakin kouçluq yanaşmalarının tətbiqi müəyyən çətinliklərlə müşayiət olunur. Təşkilati, metodoloji və motivasiya problemləri kouçluğun tətbiqinin qarşısında duran əsas maneələrdir. Bu çətinliklərin aşılması üçün məktəb rəhbərliyi və müəllimlərə kouçluq strategiyalarının faydalarını və tətbiq üsullarını izah edən təlimlər, seminarlar və müvafiq dəstək proqramları təşkil edilməlidir. Bu yanaşmaların effektiv tətbiqi nəticəsində məktəblərdə daha güclü liderlik, daha yüksək motivasiya və əməkdaşlıq mühiti yaradılacaq, şagirdlərin potensialı daha yaxşı ortaya qoyulacaqdır.

Kouçluq strategiyalarının məktəb idarəçiliyində tətbiqi məktəbin idarə edilməsindəki bütün iştirakçıların potensialını ortaya çıxarmaq və təhsil mühitini inkişaf etdirmək üçün mühüm bir vasitədir. Bu yanaşma məktəb rəhbərlərinin, müəllimlərin və şagirdlərin fərdi və kollektiv inkişafına yönəlmiş bir yanaşma təmin edərək təhsil sisteminin daha müasir və effektiv şəkildə fəaliyyət göstərməsini mümkün edir.

**Problemin aktuallığı.** Məktəblərin idarə olunmasında kouçluq strategiyalarının tətbiqi son dövrlərdə təhsil sisteminin inkişafı və yeniliklərə adaptasiyası baxımından son dərəcə aktual bir mövzuya çevrilmişdir. Təhsil sahəsində dəyişən tələblər və müasir yanaşmalar ənənəvi idarəetmə üsullarının kifayət etməməsinə və daha yenilikçi metodların tətbiqinə ehtiyac duyulmasına səbəb olmuşdur. Məktəb idarəçiliyində kouçluq strategiyalarının əhəmiyyəti, xüsusən də müasir təhsildə dəyişən yanaşmalar və tədris tələbləri ilə uyğunlaşdırılmağa çalışıldıqda daha da aktuallaşır. Bu səbəbdən, bu mövzu həm nəzəri, həm də praktik baxımdan təhsil sisteminin inkişafına əhəmiyyətli dərəcədə töhfə verə bilər.

**Problemin elmi yeniliyi.** Bu məqalənin elmi yeniliyi kouçluq strategiyalarının məktəb idarəçiliyində tətbiqinin təhsil sahəsindəki mövcud yanaşmalardan fərqli bir perspektiv təqdim etməsində və bu yanaşmanın məktəb rəhbərliyi, müəllimlər və şagirdlər arasında daha effektiv və məhsuldar əlaqələrin qurulmasında potensialını ortaya qoymasındadır. Məqalədə kouçluğun yalnız rəhbərlik və idarəetmə proseslərinə deyil, həm də təhsil prosesinin hər bir iştirakçısının inkişafına xidmət etdiyi göstərilib. Bu yanaşmanın məktəbdəki bütün iştirakçılara, xüsusən müəllimlərə və şagirdlərə motivasiya, əməkdaşlıq və şəxsi inkişaf baxımından böyük fayda təmin edəcəyi vurğulanıb. Elmi yenilik həm də bu metodların tətbiqinə dair geniş bir nəzəri çərçivənin və praktiki tövsiyələrin təqdim edilməsindədir.

**Problemin praktik əhəmiyyəti.** Bu məqalənin praktik əhəmiyyəti kouçluq strategiyalarının məktəb idarəçiliyində tətbiqinin təhsil sistemindəki idarəetmə və tədris proseslərinin keyfiyyətini artırmasına yönəlmişdir. Məktəb rəhbərləri və müəllimlər kouçluq yanaşmalarını tətbiq etməklə, həm özlərini, həm də şagirdləri inkişaf etdirə bilərlər. Kouçluq strategiyalarının məktəblərdə tətbiqi nəticəsində məktəblərdə daha güclü komanda işləri, daha yaxşı liderlik və idarəetmə bacarıqları, həmçinin şagirdlərin fərdi inkişafına daha çox diqqət ayrılacaq. Bu yanaşma təhsil müəssisələrinin müasir tələblərə cavab verməsini təmin edir və təhsilin ümumi keyfiyyətinin artırılmasına kömək edir.

**Ədəbiyyat:**

1. Kraft, M. A., Blazar, D., & Hogan, D. The effect of teacher coaching on instruction and achievement: A meta-analysis of the causal evidence. Review of Educational Research, — 2018, 88(4), — p.547-588.
2. Сорокопуд, Ю.В., Уварова, Н.Н. Педагогический коучинг как эффективное средство сопровождения одарённых студентов // Практики развития: новые отношения в образовании, их реализация и возможности управления: Материалы XXII научно-практической конференции. – Красноярск: Автономная некоммерческая образовательная организация «Институт психологии

практик развития», – 2016, № 9, – с. 173–178.

3. Моисеев, А. М. Теория стратегического управления школой: ключевые вопросы и подходы к их решению: монография: в 2 т. / А. М. Моисеев; под ред. О. М. Моисеевой. – М.: АСОУ, – Т. 1. – 2015, – 260 с.

4. Зеленко, Н.В., Ковалева, Ю.Ю. Коучинг как инновационная технология управления индивидуально-личностным развитием обучающихся // Технолого-экономическое образование. – 2018, – № 9. – с. 23–27.

5. Кулемина, Е.В. Коучинг – эффективная технология психолого-педагогического сопровождения учащихся // Психология учебной и профессиональной деятельности. – Новосибирск: Общество с ограниченной ответственностью «Академиздат», – 2018, № 9 – с. 34–38.

6. Кострова, Ю. Б., Шибаршина, О. Ю., Коучинг как инновационная образовательная технология. Образовательные ресурсы и технологии. – 2019, № 2 (27), с.27-32.

7. Jones, G. How to Create a Coaching Culture / Gillian Jones, Ro Gorell. — London : Kogan Page, 2014, — 267 p

**Redaksiyaya daxil olub:** 10.02.2025.